1
2023

# GÖYƏRÇİN

İSSN-0207-4710



# "GÖYƏRÇİN" - 65

## QARTALLAR YETİŞDİRƏN "GÖYƏRÇİN"

**Ömrün boyu ucalmısan,**
**Ləyaqətlə yaşamısan.**
**Qanadında sən ellərə**
**Sevinc, fərəh daşımısan.**

**Hey qanad çal, üstümüzə**
**Şeir, hikmət, nağıl yağsın.**
**Gəlişinlə ömrümüzə,**
**Günümüzə günəş doğsun.**

**Körpələrin ürəyinə**
**Cığır salan "Göyərçin"im.**
**Azərbaycan göylərində**
**Qanad çalan "Göyərçin"im.**

Bəli, nə az, nə azacıq, düz 65 ildir ki, "Göyərçin" Azərbaycan göylərində qanad çalır. Şərəfli bir ömür yolu keçən "Göyərçin"in Azərbaycanın mətbuat salnaməsində özünəməxsus yeri və rolu var.

Burada istər-istəməz görkəmli təmsil ustası Hikmət Ziyanın bir sözü yada düşür: "Göyərçin" qartallar yetişdirir"... Doğrudan da, bir-birini əvəz edən neçə-neçə nəsillərin tərbiyəsində bu jurnal çox böyük işlər görüb. Öz sehrli qanadlarında evlərə nağıl, şeir, hekayə, tapmaca, əyləncə, bir-birindən maraqlı rəsmlər aparan "Göyərçin" Azərbaycan dövlətinin himayəsi altında öz uçuşlarını indi də ləyaqətlə davam etdirir.

1958-ci ildən bu günədək nəşr edilən "Göyərçin" jurnalı neçə-neçə insan nəslinin təlim-tərbiyəsində mühüm rol oynayıb. İbtidai siniflərimiz üçün dərsliklərimiz tərtib edilərkən ilkin mənbə kimi həmişə "Göyərçin" jurnalına müraciət edilib. Bu da təsadüfi deyildir, 65 il fasiləsiz nəşr edilən "Göyərçin" zəngin bir kitabxana yaradıb. Onun səhifələrində dünya və eləcə də Azərbaycan uşaq ədəbiyyatının ən gözəl nümunələri, inciləri nəşr edilib. "Göyərçin"i "Əlifba"dan sonra ikinci dərslik adlandıranlar qətiyyən yanılmırlar. Tədris vəsaitlərinin, oxu kitablarının, dərsliklərin hazırlanmasında həmişə ilk dəfə "Göyərçin" də çap olunan bədii mətnlərdən istifadə olunub və bu iş indi də davam etdirilir. Ona görə ki, "Göyərçin" in müəllifləri çox görkəmli qələm sahibləri olublar. Adları ədəbiyyat tariximizə bəzək olan Abdulla Şaiq, Mirzə İbrahimov, Süleyman Rəhimov, Mehdi Hüseyn, Əli Vəliyev, Rəsul Rza, Süleyman Rüstəm, Məmməd Rahim, Əhməd Cəmil, İlyas Əfəndiyev, Mirvarid Dilbazi, Əzizə Cəfərzadə, Hüseyn Abbaszadə, İsmayıl Şıxlı, Qılman İlkin, Gülhüseyn Hüseynoğlu, Balaş Azəroğlu, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Qasım Qasımzadə, Salam Qədirzadə, Nəriman Həsənzadə, Əli Kərim, Məmməd Araz, Xəlil Rza Ulutürk, Anar, Elçin, Əlibala Hacızadə, Mövlud Süleymanlı və digər görkəmli yazıçılarımızın məhz "Göyərçin" üçün də əsər yazmaları çox önəmli faktlar sırasındadır.

"Göyərçin"in daha məzmunlu nəşr olunmasında tanınmış uşaq yazıçılarımızdan Mikayıl Rzaquluzadənin, Mirmehdi Seyidzadənin, Teymur Elçinin, Xanımana Əlibəylinin, Tofiq Mahmudun, Hikmət Ziyanın, İlyas Tapdığın, Məstan Günərin, Ələviyyə Babayevanın, Əzizə Əhmədovanın əməyi böyük olmuşdur. İndi onların yolunu Zahid Xəlil, Qəşəm İsabəyli, Ələmdar Quluzadə, Ələsgər Əlioğlu, Aləmzər Əlizadə, Sevinc Nuruqızı, Aygün Bünyadzadə, Reyhan Yusifqızı və başqaları ləyaqətlə davam etdirirlər.

«Göyərçin"in qoşa qanadlarından biri də rəsm olmuşdur. Ölkəmizin ən görkəmli rəssamlarının əsərləri jurnalımızın daha gözəl çap olunmasına zəmin yaratmış, balalarımızın estetik zövqünün formalaşmasında mühüm rol oynamışdır. Xalq rəssamları Yusif Hüseynov, Rafiq Mehdiyev, Arif Hüseynov, tanınmış uşaq rəssamı Rəşid Umurov ayrı-ayrı vaxtlarda "Göyərçin"in bədii redaktoru vəzifəsində çalışmışlar. "Göyərçin"də əsərləri çap olunan rəssamların əksəriyyəti görkəmil fırça ustaları olmuşlar. Davud Kazımov, Rasim Babayev, Tofiq Cavadov, Toğrul Nərimanbəyov, Elmas Hüseynov, Arif Əzizov, Hacıəmi Atakişiyev, Oqtay Quliyev, Ənvər Qarayev, Nailə Cəfərova, İlqar Mehdiyev, Nərgiz Məmmədova, Vəfa Allahyarova, Mətanət Aslanova, Orxan Hüseynov, Aytən Şirzadova, Leyla Salamova, Kübra Əkbərova və başqalarının rəsmləri ayrı-ayrı vaxtlarda jurnalımzın daha gözəl nəşrinə zəmin yaratmışdır. Bu proses indi də davam etməkdədir. Rəssamlıq Akademiyasının tələbələri jurnalımızın yaradıcı kollektivinin qonağı olurlar.

Sevindirici haldır ki, "Göyərçin" jurnalı, onun səhifələrində çap olunan bədii əsərlər, eləcə də rəsmlər haqqında, həm ölkəmizdə, həm də qardaş Türkiyədə tədqiqat əsərləri yaranıb və bu proses davam etməkdədir.

Əziz balalar, ümid eləyirik ki, "Göyərçin" in yeni müəllifləri, rəssamları sizin aranızdadır. Yaradıcı kollektivimizi 65 illik yubiley münasibətilə təbrik eləyənlər çoxdur, biz də sizi təbrik edirik. Çünki "Göyərçin" Azərbaycan uşaqlarının sevimli jurnalıdır.

**Rafiq Yusifoğlu,**

**"Göyərçin" jurnalının baş redaktoru,**
**Azərbaycan Respublikasının Əməkdar**
**mədəniyyət işçisi, filologiya**
**elmləri doktoru, professor.**